# GƏRGİN ƏMƏYİN POETİK BƏHRƏSİ

**Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, şair Mikayıl Yanar ömrünün səkkizinci onilliyinin sonlarında sevimli oxucuları ilə onuncu dəfə - "Üzeyir dünyası" kitabı ilə "görüşmüşdür". Tanınmış şairin bu kitabı Azərbaycan opera sənətinin banisi, SSRİ xalq artisti, iki dəfə Dövlət (Stalin) mükafatı laureatı, akademik, bəstəkar, ədib, mühərrir, maarifçi, tərcüməçi və müəllim Üzeyir Hacıbəyovun anadan olmasının 130 illiyinə həsr edilmişdir. Müəllif böyük sənətkarın uşaqlıq, gənclik dövründən sonrakı ömür yolundan poetik dillə söhbət açır.**

Kitabda həmçinin Qarabağ torpaqlarından, onun keşməkeşli tarixindən maraqlı fraqmentlər göstərir ki, Mikayıl Yanar bu əsəri işləyərkən böyük yaradıcılıq və araşdırmalar aparmış, gərgin zəhmət nəticəsində özünün onuncu "mənəvi" övladını ərsəyə gətirmişdir. Əsərdəki hadisələr, əhvalatlar, ayrı-ayrı məqamlar və s. rəngarəng sözlərin vasitəsilə öz maraqlı poetik həllini tapmışdır.

Respublikanın əməkdar jurnalisti, tanınmış yazıçı-jurnalist Qərib Mehdinin redaktəsi ilə nəşr olunan əsərə filologiya elmləri doktoru, professor Abbas Səmədov, filologiya üzrə fəlsəfə doktoru Ruziyə Quliyeva və yazıçı-publisist Fərruxə Umarova ön söz yazmışlar.

Qeyd edək ki, böyük bəstəkarın ömür yolunu lirik təhkiyə üslubunda işıqlandıran "Üzeyir dünyası" poetik cəhətcə çox dəyərli olan bir sənət nümunəsidir. Üzeyir Hacıbəyovun uşaqlıq və ilk gənclik çağlarını konkret və yığcam bir şəkildə əks etdirən müəllif sözün qüdrətilə portret cızmaqda elə də çətinlik çəkmir, öz istəyinə asanlıqla nail olur. "İki nəhəng - iki dost" bölümü olduqca maraqlı detallarla zəngindir. Bu bölümdə iki dahi sənətkar - Üzeyir Hacıbəyov və Müslüm Maqomayev arasında




qırılmaz dostluq əlaqələri konkret, yığcam, real faktlarla qələmə alınmışdır. Poemada Üzeyir böyüklüyü obrazlı misralarla, poetik dillə tez-tez anılır, yada salınır:

**Notların içində ötüb ömür, gün,**
**Notlarla ucalıb göyə qalxıbdır.**
**Deyirəm, dünyanı dolanmaq üçün,**
**Üzeyir nəğmədən qanad taxıbdır.**

Azərbaycanın XX əsr mədəniyyət və musiqi tarixində Üzeyir bəy Hacıbəyov (Hacıbəyli) qədər hələ öz zamanında geniş şöhrət qazanaraq tanınan və sonralar da adı və xatirəsi daim əziz tutulan ikinci bir şəxs təsəvvür etmək çətindir. Ü.Hacıbəyovun həyat və yaradıcılığına həsr edilmiş ən müxtəlif səpkili əsərlərin -irihəcmli monoqrafiya və tədqiqatlardan tutmuş, məqalə, oçerk, esse və başqa yazılara qədər sayı minlərlə ölçülür və kiçik xülasələr, rəylər, xəbərlər hələ bu sıraya daxil edilmir. Bütün bunlar, ixtisasca ədəbiyyat müəllimi olan və uzun müddət jurnalist kimi fəaliyyət göstərən Mikayıl Yanarın gərgin araşdırma aparmasına, ümumiləşdirmələr etməsinə yardımçı olmuşdur. M.Yanarın 7 çap vərəqi həcmində nəfis tərtibatla təqdim olunan yeni kitabını vərəqlədikcə müəllifin gərgin əməyi göz önündə canlanır.

**Qarabağ düzündən keçib gedirəm,**
**Gəlir qulağıma Üzeyir səsi.**
**Hər şirin bulaqdan içib gedirəm,**
**Könlümü oxşayır torpaq nəğməsi...**

Xəyalən Qarabağı qarış-qarış gəzib-dolanan şair Mikayıl Yanar dahi bəstəkarın ruhu ilə danışır, ecazkar Qarabağ torpağının nəğməsini dinləyir. İki hissəli poemada "Şərqin ilk operası", "Üzeyirin qəhrəmanları", "Qarabağ torpağı", "Qarabağ xalçaları", "Əsgəran qalası", "Döyüşən nəğmələr", "S.Berkelsona cavab", "Qız qalasının yanında", "Birmərtəbəli mənzil" və s. bölmələrdəki hadisələr bir daha göstərir ki, müəllif bu əsəri ürək yanğısı, Üzeyir dünyasına böyük ehtiram və məhəbbətlə qələmə almışdır.

Onu da qeyd edək ki, ömrünün 80-ci baharını haqlamış Mikayıl Yanar bundan əvvəlki kitablarında da milli-mənəvi dəyərlərimizə böyük qiymət verən əsərləri ilə çoxdan, lap çoxdan öz oxucu auditoriyasında sevilən, sayılıb-seçilən qələm əhlidir. İnanırıq ki, şairin uzun illərdən bəri gərgin əməyi, yaradıcılıq və araşdırmalarının dəyərli bəhrəsi olan "Üzeyir dünyası" kitabı da oxucular tərəfindən sevilə-sevilə oxunacaq və mütaliəyə sərf edilən vaxta heç kəs heysilənməyəcəkdir.

**Füzuli RÜZİGAR**

***P.S. 22 dekabrda AMEA-nın Gəncə bölməsində Mikayıl Yanarın "Üzeyir dünyası" kitabının təqdimat mərasimi keçiriləcək, ziyalılar, şairin qələm yoldaşları səmimi ürək sözlərini söyləyəcəklər.***